# Əziz Ağstafalılar! Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibəti ilə təbrik edirik!



“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.
Heydər Əliyev


Heydər Əliyev – xalq birliyi əbədidir!

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 21-22 (1089) 23 dekabr 2020-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı


# Vətən müharibəsinin zəfər təntənəsi

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəfər paradında iştirak ediblər*



***Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.***

“Dəmir yumruq” əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, “Zəfər” ordenli general-leytenant Kərim Vəliyev komandanlıq edib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Hərbi orkestr “Azərbaycan fanfarası”nı ifa etdi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verdi.

Dövlət başçıları əsgərləri salamladılar.

Hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etdi.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başladı. Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.

Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona “Zəfər” ordenli general-mayor Ağamir Sultanov başçılıq edirdi. Meydanda özüyeriyən haubitsa və artilleriya qurğuları - 152 millimetrlik “Akasiya”, 152 millimetrlik “MSTA-S”, 203 millimetrlik “Pion”, eləcə də 220 millimetrlik “TOS-1A” ağır odsaçan, tank əleyhinə “Xrizantema-S” kompleksləri, “DANA” özüyeriyən top-haubitsaları, “Qrad”, “RM-70/85”, “BM-21”, “Smerç” yaylım atəşli reaktiv sistemləri, “TR-300 Qasırğa”, “Ekstra” taktiki, “Polonez” və “LORA” əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.

“Dəmir yumruq” əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsində Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin də əyani təsdiqidir.






# Prezident İlham Əliyev Rusiya Federal Təhlükəsizlik Xidmətinin direktorunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikovu qəbul edib.

Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikov Rusiya Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə bölgədə mövcud vəziyyət, münaqişənin həlli, üçtərəfli Bəyanatın müddəalarının icrası müzakirə edilərək, vəziyyətin sabit olduğu bildirildi.

Söhbət zamanı Azərbaycanla Rusiya arasında təhlükəsizlik sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

Prezident İlham Əliyev Rusiya dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

# Prezident İlham Əliyev Əfqanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanullah Ceyhunun etimadnaməsini qəbul edib.

Etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Amanullah Ceyhun dedi:

- Zati-aliləri cənab Prezident, Sizi salamlayıram. Əvvəlcə, bu gün vaxt ayırıb məni qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Bu gün burada olmaq və Prezident Əşrəf Qaninin salamlarını çatdırmaq mənim üçün şərəfdir. O, Sizə böyük ehtiramını ifadə edir, möhkəm cansağlığı, Azərbaycan xalqına isə firavanlıq arzu edir.

Zati-aliləri cənab Prezident, Prezident Əşrəf Qani tərəfindən imzalanmış və mənim Əfqanıstanın qardaş Azərbaycana, gözəl ölkənizə səfir təyin olunmağım haqqında etimadnaməmi, habelə sələfimin geri çağırılmasına dair məktubu Sizə təqdim etməkdən şərəf duyuram.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev dedi:

- Cənab səfir, xoş gəlmisiniz, sizi görməyə çox şadam. Xahiş edirəm mənim də salamlarımı və ən xoş arzularımı cənab Prezidentə və qardaş əfqan xalqına çatdırasınız. Biz dostluq və tərəfdaşlığımızı yüksək qiymətləndiririk. Deyə bilərəm ki, ölkələrimiz arasında münasibətlərin sürətli inkişafı dialoqumuzun intensivləşdirilməsinə dair hər iki tərəfin güclü niyyətini nümayiş etdirir. Sizin mənim Prezident Qani ilə görüşlərim haqqında məlumatınız var. Biz onunla Azərbaycanda, xarici ölkələrdə, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində dəfələrlə görüşmüşük. İstənilən beynəlxalq tədbirdə biz hər zaman görüşmək üçün vaxt tapırıq. Onu da deyim ki, bizim görüşlərimiz həmişə çox məhsuldar olur. Biz münasibətlərimizdə ciddi tərəqqiyə nail olmuşuq. Birgə səylərimiz nəticəsində regionda tamamilə yeni vəziyyət yaranmışdır. Bizim siyasi əlaqələrimiz heç vaxt olmadığı qədər güclüdür. Biz iqtisadi əməkdaşlıq və sərmayə layihələrinə dair çoxsaylı məsələləri müzakirə edirik. Bildiyiniz kimi, biz bununla bağlı artıq müəyyən ideyalar ortaya qoymuşuq. Biz dövlət sektoru ilə bağlı birgə işlər görmüşük və mən şadam ki, “ASAN xidmət” modeli artıq Əfqanıstanda tətbiq edilir. Bu, Prezident Əşrəf Qaninin Əfqanıstanın modernləşdirilməsi, əhaliyə müasir xidmətlərin göstərilməsi ilə bağlı baxışının təzahürüdür və belə bir mühüm inkişafda rol oynamağımız bizi fərəhləndirir.

Bir daha xoş gəlmisiniz, Azərbaycanda yaxşı vaxt keçirməyinizi arzulayıram. Əminəm ki, burada özünüzü vətəninizdəki kimi hiss edəcəksiniz.

# Ağstafa Rayon İcra Hakimiyyətinin başçısının yeni il təbriki

**Əziz ağstafalılar! Sizi, Dünya Azərbaycanlılarının Həmrəylik Günü, 2020-ci il Zəfər ili və qarşıdan gələn Yeni il münasibətilə səmimi qəlbdən təbrik edir və möhkəm can sağlığı arzu edirəm.**

1991-ci il dekabrın 16-da ulu öndərimiz Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik günü elan etdi. Artıq 29-cu ildir ki, planetimizin 70-dən artıq ölkəsində yaşayan bacı və qardaşlarımız bu tarixi günü böyük fəxarət hissi ilə qeyd edirlər. Hər il dekabrın 31-də, Yeni ilin gəlişində bir-birimizə bütün ümidlərimiz və arzularımız çin olsun deyə təbrik edirdik. 29-cu Həmrəylik Günümüzü isə müzəffər Ali Baş Komandınımızın və xalqımızın bütün dünya qarşısında Vətənimzin ölüm-dirim savaşından başı uca, üzü ağ çıxmaq qüruru ilə qeyd edirik. Yola saldığımız 2020-ci il, koronavirus pandemiyası ilə bütün dünya xalqlarına bəlalar, dərdlər yaşatdığı bir vaxtda, xalqımız üçün qaranlıqdan aydınlığa çıxışın verdiyi mənəvi zövq və özünə inam hisslərinin bəxş etdiyi xoşbəxtliyin hakim olduğu il kimi şanlı tariximizə qızıl hərflərlə həkk olundu. Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin vətən və xalq qarşısında xilaskarlıq missiyasını, zəngin dövlətçilik irsinin layiqli davamçısı olduğunu bütün dünyaya sübut edən möhtərəm Prezidentimiz öz dəmir yumruğu ilə hər birimizin ümidlərini və arzularını çin etdi. Nəhayət ki, neçə illərdir qeyd etdiyimiz Həmrəylik Günümüz ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin qurulmasında, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynadı. Beləliklə bütün dünyada yaşayan azərbaycanlıların Ali Baş Komandanımızın ətrafında əl-ələ verərək həmrəy olması nəticəsində, cəmi 44 gün ərzində düşmənlərimiz gücümüzün, qüdrətimizin qarşısında diz çöküb məhv oldular. Belə ki, xalq-iqtidar birliyi, iqtisadi gücümüz, müasir ordu quruculuğumuz ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu və həmrəy olan azərbaycanlılar özünün qalib xalq olduğunu bütün dünyaya bəyan etdi. Növbəti ildən etibarən Dövlət başçımızın müvafiq Sərəncamı ilə hər il noyabrın 8-i müzəffər Azərbaycan Ordusunun Qarabağımızın tacı sayılan Şuşa şəhərinin işğaldan azad etdiyi gün, ölkəmizdə Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcəkdir. 10 dekabr tarixində isə paytaxtımızın Azadlıq meydanında Ordumuzun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin də bir qisminin nümayiş etdirildiyi Vətən müharibəsindəki qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. "Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına Azərbaycan lideri İlham Əliyevlə Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın çiyin-çiyinə iştirak etməsi ulu öndər Heydər Əliyevin Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının əbədi və daimi olduğunu təcəssüm etdirən "Biz bir millət, iki dövlətik" müdrik kəlamını bütün dünyaya bir daha diqtə etdi. Beləliklə 2020-ci ilə təsadüf edən şanlı Zəfər paradı bütün dünyaya Azərbaycanın gücünü və qüdrətini açıq-aşkar şəkildə nümayiş etdirdi. Eyni zamanda nəinki düşmənlərimizin, ümumiyyətlə hər hansı bir xarici qüvvələrin ölkəmizə qarşı qərəzli mövqe cəhdinə qarşı da keçilməz bir sədd çəkildi. Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Öz növbəmizdə biz ağstafalılar da fəxr edirik ki, torpaqlarımızın yağı düşmən işğalından azad etməklə Vətən müharibəsində şəhidlik zirvəsini fəth edən qəhrəmanlarımızın sırasında ağstafalı oğullarımızda yer alıb. Allahdan bütün şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyirəm! Qazilərimizin tezliklə şəfa tapmasını arzu edirəm!

**Əziz ağstafalılar!**

Digər illərdən fərqli olaraq 2020-ci ili heç bir zaman geridə qoymayacağıq. Biz, bu ili hər il, hər ay, hər gün, hər saat və hər saniyə yaşayacağıq. Əsirlər və qənirələr keçəcək, zaman və təqvimlər dəyişəcəkdir, ancaq 2020-ci ili dünya azərbaycanlıları həmrəy şəkildə yenə də yaşayacaqlar. Çünki bu il azərbaycanlılara qarşı neçə illər bəslənən dünya ədalətsizliyinə, qərəzliyinə və haqsızlığına nida qoyulduğu ildir. Çünki bu il bizim haqlı zəfər ilimizdir. Çünki bu il, Ulu Öndərimizin vəsiyyətini savadı, bacarığı, iradəsi və dəmir yumruğu ilə qızıl imzasını atan müzəffər Ali Baş Komandanımız və onun xalqının ilidir!

Şanlı Bayramlarınız mübarək, əziz ağstafalılar!

***Seymur Orucov,***
***Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı***



# Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi

Azərbaycan Respubikasının Prezidenti cənab İlham Əliyevin 3 dekabr 2020-ci il tarixdə imzaladığı sərəncama əsasən, canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi Ağstafada bir dəqiqəlik sükutla yad edildi.

# Şəhidlərə xatirə bulağı inşa olundu



Vətən müharibəsində torpaqarımızın azadlığı uğrunda canlarından keçmiş Ağstafa rayonunun Qırılı kəndindən olan şəhidlərimiz-İmaməliyev Elvin, Hüseynli Əliheydər, Əmrahov Emin, Abdullayev Elgün, Quluyev Təbriz və Düqışlaq kəndindən olan şəhidimiz Taleh Namazovun xatirələrinin əbədiləşdirilməsi məqsədi ilə hər iki kənddə Şəhidlər bulağı inşa olunaraq istifadəyə verilib.

Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, şəhidlərimizin doğmaları, kənd ağsaqqaları və ziyalıları işitrak ediblər. Şəhidlərimizin ailə üzvləri öz çıxışlarında dövlətimiz tərəfindən şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

*Yeni təyinat*

# Poçt filialının yeni rəisi



Ağstafa Mənzil Kommunal Təsərrüfatı İdarəsinin baş direktoru Taleh Hüseynova yüksək etimad göstərilmiş və o, Azərpoçt Məhdud Məsuliyyətli Cəmiyyətin Ağstafa Poçt Filialına rəis təyin olunmuşdur.

Taleh Abdulla oğlu Hüseynov 1982-ci ildə Ağstafa şəhərində anadan olmuş, Ağstafa şəhər 2 saylı tam orta məktəbində təhsil almışdır. O, orta məktəbi bitirdikdən sonra Gəncə Ekologiya Aqrar İnstitutuna daxil olmuş və həmin institutu bitirdikdən sonra hərbi xidmətə getmişdir. T. Hüseynov vətən qarşısında xidməti borcunu yerinə yetirdikdən sonra Ağstafa Qaz İstismar İdarəsində əmək fəaliyyətinə başlamış, 2016-cı ildə isə Ağstafa Su-Kanal idarəsində işləmişdir.

Gənc mütəxəssis T. Hüseynovun iş qabiliyyəti, siyasi hazırlığı nəzərə alınaraq ona sonralar daha yüksək etimad göstərilmiş və o, 2017-2019-cu illərdə Rayon icra hakimiyyətində məsul işdə çalışmışdır. T. Hüseynovun səmimiyyəti, vətəndaşlarla davranışı işlədiyi dövrdə yenidən qiymətləndirilmiş və o, 2019-cu ildən 2020-ci ilin dekabr ayına kimi Ağstafa Kommunal Müəssisəsi Kombinatına rəhbərlik etmişdir.T. Hüseynov şəhərimizin təmizliyini həmişə diqqət mərkəzində saxlamış, işçilərin əməyini müntəzəm olaraq qiymətləndirmişdir. Bu il dekabr ayının 7-də T.Hüseynova yenidən etimad göstərilmiş və o, Azərpoçt Məhdud Məsulilyyətli Cəmiyyətin rəhbərliyinin əmri ilə Ağstafa Poçt Filialına rəis təyin olunmuşdur. Əminliklə demək olar ki, Taleh Hüseynov bu vəzifədə də özünü doğruldacaq və əhaliyə yüksək səviyyəli poçt xidməti göstərilməsini təmin edəcəkdir.

Təbrik edirik!

# Ağstafalı şəhidimiz "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif olundu

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir sıra hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Bu qəhrəmanlar sırasında rayonumuzun Böyük-Kəsik kəndindən olan Yusifli Azər Nizami oğlunun da adı vardır. O, Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fərmanı ilə bu yüksək mükafata layiq görülmüşdür. Bütün ağstafalılar Vətən müharibəsində qəhrəmanlıq göstərən şəhidimiz, baş gizir Azər Yusiflinin ruhu qarşısında baş əyir və onunla fəxr edirlər.

# Göycəlidə həyat qaynayır

***Hər dəfə Həsən suyunun Tatlı bölgəsinə güzarım düşəndə Göycəli torpağına ayaq basan kimi mərhum Fərzalı Abbasovu xatırlayıram. Xatırlaya bilmirəm ki, onu neçənci ildən tanıyıram. Bircə onu bilirəm ki, yaraşıqlı, telli bir oğlan idi. Yenicə inşaat briqadirliyindən azad edilib Göycəli kəndinə üzümçülük briqadiri təyin olunmuşdu. Elə üzümçülük sahəsində də tanış olmuşduq. Gənc briqadir kimi qəzetdə oçerk yazmaq üçün onun sahəsinə getmişdim.***

Sonralar tez-tez görüşürdük. İldən-ilə uğurları çoxaldıqca, nailiyyətləri artdıqca barəsində daha çox yazırdım. Bu yazılardan ruhlandıqca daha yaxşı işləyir, yeni zirvələr fəth edirdi. Halal zəhmət onu o qədər yüksəltdi ki, əvvəllər Azərbaycan Ali Sovetinə, sonralar SSRİ Ali Sovetinə deputat seçildi. "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görüldü. Yaşa dolub təsərrüfat işlərindən ayrılandan sonra isə doğma kənddə sovet sədri oldu. Bu vəzifədə də qurub-yaratmağa, el-obada bir iz qoymağa çalışdı. Onun təşəbbüsü ilə bölgəyə asfalt yol çəkildi, mədəniyyət ocağı yaradıldı, yeni müasir mağaza binası tikildi, iaşə obyektləri açıldı. Onun bilavasitə iştirakı ilə kəndin ortasında salınmış istirahət parkı bu gün də camaatın əyləncə və gəzinti yeridir. Bir sözlə kənddə Fərzalı Abbasovun adı ilə bağlı çox nişanələr var...

Bu günlərdə Göycəli kənd icra nümayəndəsi Yasin Əhmədovla görüşməyə gedəndə də ilk söhbətimiz Fərzalı Abbasov barədə oldu, bu unudulmaz insanı dərin hörmətlə yad etdik. Buda təsadüfi deyildi.



İcrfa nümayəndəsi Yasin Əhmədov təsərrüfat işlərinə yad adam deyil. 62 yaşı ötmüş bu əməksevər insan ali təhsil aldıqdan sonra bir müddət Səməd Vurğun adına sovxozda mühəndis-melioratov işləmiş, sonra kadrlar şöbəsinin rəisi olmuşdur. Yerli idarəetmə orqanlarında aparılan islahatlardan sonra o, bir müddət kəndlərində bələdiyyə sədrinin müavini, 2014-cü ildən kənd icra nümayəndəsinin müavini, ötən ilin iyunundan isə Göycəli ərazi vahidinin icra nümayəndəsi təyin edilmişdir.

Söhbət əsnasında Yasin Əhmədov bildirdi ki, bu gün Göycəli kəndi əhalisinin sıxlığı, böyüklüyü, abadlığı və mədəniyyəti, camaatın işgüzarlığı ilə seçilən yaşayış məkanlarımızdan biridir. 2800 nəfərdən çox əhalisi olan bu kənddə 780 təsərrüfat vardır. Bir zamanlar təsərrüfatın əsasını üzümçülük təşkil edən Göycəlidə indi əmək adamlarının əksəriyyəti taxılçılıq və heyvandarlıqla məşğul olur. Bu mövsümdə 300 hektardan artıq sahə şumlanmış, onun 220 hektarına taxıl əkilmişdir. Qalan sahələr isə yazlıq bitkilər əkini üçün nəzərdə tutulmuşdur. Camaatımız çox işgüzar adamlardır. Onlar ilin bütün fəsillərində can-başla işləyir, öz zəhmətləri ilə ailə büdcələrini artırırlar.

Son günlər qüdrətli Azərbaycan Ordumuzun ikinci Qarabağ müharibəsində erməni işğalçı döyüşçləri üzərində qazandığı parlaq qələbə ölkənin bütün vətəndaşları kimi, göycəliləri də daha yaxşı işləməyə, qurub-yaratmağa ruhlandırmışdır. Bu il sentyabrın 27-də erməni quldurları torpaqlarımıza növbəti dəfə hücuma keçəndə bizim kəndin cavanları da möhtərəm Prezidentin səfərbərlik çağırışına qoşulmuş, Qarabağ torpağını yağı düşməndən təmizləmək uğrunda döyüşlərə qoşulmuşlar. Onlardan üç nəfəri şəhid olmuş, bir nəfər itkin düşmüş, dörd nəfər isə yaralanmışdır. Doğma vətənimiz onların igidliklərini heç zaman unutmayacaqdır.

Kəndimiz abadlığı və mədəniyyəti ilə də başqa yaşayış məntəqələrindən geri qalmır. Bir neçə il əvvəl tikilib istifadəyə verilmiş məscid bu gün də kənd möminlərinin inanc yeridir.

Son illlər kəndimizdəki köhnə məktəbin yerində tikilmiş yeni ikimərtəbəli məktəb binası Göycəliyə xüsusi yaraşıq verir. Mədəniyyət evi, kitabxana, uşaq bağçası, feldşer-mama məntəqəsi, poçt binası, mağaza və ictimai-iaşə obyektləri kəndin firavan həyatından xəbər verir. Düzdür, son vaxtlar "Covid-19" epidemiyası ilə əlaqədar tətbiq olunan karantin rejimi bu müəssisələrin fəaliyyətində durğunluq yaradıb. Bununla əlaqədar əhali arasında geniş təbliğat işləri aparılır, karantin rejiminin qaydalarına ciddi əməl olunmasına çalışırıq. Ona görə çox şükür ki, hələlik bizim el-obada bu mənfur xəstəliyin qurbanlarına rast gəlinmir.

Qarşıdan qarlı-şaxtalı qış gəlir. Əhalimiz bu mövsümə əvvəldən hazırlıq görüb. Əhalinin qazla və elektrik enerjisi ilə təminatında elə bir problem yoxdur. Əminəm ki, erməni işğalçıları üzərində şanlı qələbə ilini uğurla yola salacaq, Yeni ili uğurlarla qarşılayacağıq...

Biz də buna əminik, Yasin müəllim! Çünki bu elin qəhrəman, zəhmətsevər insanları hər gələn ili uğurla yola salıb, üzüağ, gülər üzlə qarşılamağa adət etmişlər.

***Firdovsi Heydərli***

# Bol məhsulun təməli qoyuldu

Yola salınmaqda olan təsərrüfat ili rayonun kənd əməkçiləri üçün də uğurlu olmuş, əkilib-becərilən sahələrdən yetərincə məhsul toplanılmışdı. Taxılçılıq sahəsində əldə olunmuş nəticələr daha sevindirici olmuş, hər hektardan nəzərdə tutulduğundan xeyli çox məhsul tədarük edilmişdir. Qazanılmış nailiyyətlər taxılçılarımızı daha da ruhlandırmış və onlar qarşıdakı ildə daha bol məhsul əldə etmək üçün torpaqdan bərk yapışmış, payızlıq əkin-səpin işlərinə böyük həvəslə başlamışlar.

Ötən dövrdə rayonun kəndlərində 8000 hektara yaxın sahədə səpin aparılmışdır ki, onun 1071 hektarını arpa əkini sahələri təşkil edir. Rayon Aqrar İnkişaf Mərkəzinin Bitkiçilik Sektorunun rəhbəri Çingiz Məmmədov əməkdaşımıza bildirdi ki, hazırda tarlalarda işlər uğurla davam etdirilir. Kənd əməkçiləri payızlıq taxıl əkini sahələrinin suvarılması ilə məşğul olurlar. Ötən müddətdə payızlıq taxıl səpilmiş sahələrin 3500 hektarında suvarma işləri yekunlaşdırılmışdır. Sahələrin suvarılmasında bəzi problemlər mövcuddur. Belə ki, suvarma əsasən Ağstafa dəryaçasında tədarük olunmuş suyun hesabına həyata keçirilir. Lakin həmin dəryaçada sahələrin suvarılması üçün yetərincə su mövcud deyildir. Buna görə rayonda əkin sahələrinin suvarılmasını tam təmin etmək üçün yeni layihələr hazırlanır. Bu layihələr öz müsbət həllini tapdıqdan sonra suvarma işində olan çətinliklər tam aradan qaldırılacaqdır.



# Qazilərin evlərinə ziyarət olundu

30 ilə yaxın bir vaxtda işğal altında olan torpaqlarımızın azad olunması həsrətinə son qoyuldu. Rəşadətli Azərbaycan ordusu Qarabağda döyüş meydanında əsl qəhrəmanlıq göstərdi, ərazi bütövlüyümüzü tam təmin etdi. Bu döyüşlərdə igid Azərbaycan əsgərləri əsl qəhrəmanlıq göstərdi, erməni əsgərlərini məhv etdi. Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən ağstafalı əsgərlər də düşmənə ağır zərbələr endirdilər. Onların bəziləri bu döyüşlərdə şəhid oldu və ağır yaralandı.

Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov bu günlər rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birlikdə torpaqlarımızın düşməndən azad edilməsi istiqamətində uğurlu hərbi əməliyyatlarda qazi adını qazanan Vətən müharibəsi iştirakçılarının evlərinə ziyarət ediblər.

Rayon rəhbəri qazilərimiz və onların ailə üzvləri ilə səmimi söhbətlər aparmış, müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük bacarığı və qətiyyəti sayəsində düşmən üzərində qələbə qazanan rəşadətli Azərbaycan Ordusunun şərəfli döyüş yolundan söz açmışdır.

Görüşdə müxtəlif bədən xəsarətləri alan qazilərimizin ailə üzvləri övladları ilə qürur duyduqlarını qeyd edərək göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirmişlər.

# Vətən uğrunda ad qazanmış oğul

Bəzən həyatda belə bir sualla qarşılaşırıq, haradan başlanır Vətən! Mücərrəd fikirdir. Lakin yorumu da çoxdur. Hər biri ağıla batandır, məntiqlidir. Müasir günlərimizdə də Vətəndən çox söhbət açılır və bu məqamda ürəklə, cəsarətlə belə deyərdik: Azərbaycan əsgərinin ayağı dəyən hər yerdən Vətən başlanır. Deməli, doğma torpağımızın hər qarışı Vətəndir, milli qürur mənbəyidir.

Bu dəyəri, bu keyfiyyəti bizə Azərbaycanın şanlı ordusunda qulluq edib ölkəmizin ərazisini genişləndirən əsgərlərimiz bəxş edib. Otuz illik həsrətə qovuşdurub. Qələbəni qələbə ardınca qazanaraq möhtəşəm Qələbəyə nail olub. Torpaqlarımız mənfur düşməndən azad olunub. Üçrəngli bayraqlarımız işğaldan azad edilmiş rayon və qəsəbələrdə dalğalanır.



Qoşqar Quliyev də şanlı ordumuzun sıralarında işğal edilmiş torpaqlarımzın azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib, addım-addım irəliləyib düşməndən qisas alıb. Qoşqar Qaçaq Kərəm kəndində doğulub, boya-başa çatıb. Orta təhsilini də həmin kənddəki məktəbdə başa vurub. Həddi buluğa çatanda isə Vətənə öz borcunu vermək üçün həqiqi hərbi xidmətə yollanıb. Bəxtinə düşən o olub ki, müqəddəs müharibədə iştirak edib. Ali Baş Komandanın rəhbərliyi altında düşmənə odlu zərbələr endirib. Xocavəndə kimi döyüş yolu keçib. Elə burada da yaralanıb, arxa cəbhəyə göndərilib.

Sorağını alıb onunla görüşməyi qərara aldıq və görüşdük. Yaşadığı ünvanda bizi özü qarşıladı. Sağ əli sarıqlı, sol gözü bağlı idi. Söhbət etdik. Döyüşçüyə xas xüsusiyyətlə getdiyi yerlərdən danışdı. Məlum oldu ki, Qoşqar Hadrutda, Cəbrayılda, Zəngilanda və Xocavənddə döyüşüb. Qəlpə sağ əlinin barmaqlarını sındırıb, sol gözünü dərindən yaralayıb. Xeyli müddət Gəncədəki qospitalda yatıb. Dövlət tərəfindən gözünün əməliyyat olunacağı gözlənilir.

Qoşqar yaralı olsa da, ağrıları azalmasa da nikbin idi. Qələbəyə sevinirdi. Ordumuzdakı cəsarətli, ürəkli və qorxmaz əsgərlərimizin keçdiyi döyüş yollarından ağızdolusu danışırdı. Özünü Vətənə layiq əsgər sayırdı. Biz də bu təqdimatın səmimiliyinə varlığımız qədər inanırıq. Belə olmasaydı düşmənin beli sınmazdı, Vətən bütövləşməzdi. Vətən qazisində ruh yüksəkliyi hökm sürürdü, bu isə əbəs deyildi.

Görüşümüzdə onu da öyrəndik ki, Qoşqarın yanına gəlib hal-əhval tutanlar da çoxdur. Onun təhsil aldığı Qaçaq Kərəm kənd tam orta məktəbin müəllim kollektivi də görüşə gəlib, öz köməkliyini göstəriblər. Müəllimlər keçmiş şagirdinə can sağlığı diləmiş, ona tez sağalmağı arzulamışlar.

Bəli, bu gün hamımız hər bir döyüşçü əsgərə qazanılmış böyük Qələbəyə görə dərin minnətdarlığımızı bildirməliyik. Vətənin keşiyində bundan sonra da ayıq-sayıq durmaq üçün onlara can sağlığı arzulamalıyıq.

***Q.Qurbanov***

## Şəhidlərimiz

# İki bacının qardaşı



Qabil Bağırov iki bacının tək bircə qardaşı idi. İndi isə o, bütün bacıların, bütün gənc oğlanların, yeniyetmələrin qardaşıdır. Çünki o, Qarabağımızı işğalçı ermənilərdən təmizləmək uğrunda gedən müharibədə canından keçərək şəhidlik zirvəsinə yüksəlmişdir.

Sıravi əsgər Qabil Bağırov 1995-ci ildə rayonumuzun Muğanlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ordu sıralarına hərbi xidmətə gedib. Ordudan tərxis olunandan sonra doğma kəndə qayıdaraq bir müddət kənddə yaşamış, 2020-ci il sentyabrın 21-də yenidən milli ordu sıralarına səfərbərliyə çağrılmışdır.

Sentyabrın 27-də şanlı ordumuz yağı düşmənin qəfil həmlələrinə cavab olaraq İkinci Qarabağ müharibəsinə başlayanda Qabil də əlinə silah götürüb Ağdam, Tərtər və Füzuli bölgələrində silahlı erməni quldurları ilə döyşlərə başlayıb. Füzuli uğrunda döyüşlərdə igid əsgərin döyüş yolu yarımçıq qallıb. Qələbə gününə az qalmış düşmən mərmisi bir neçə əsgər dostları və komandirləri ilə birlikdə onların həyatına son qoyub.

Vətən yolunda şəhid olan Qabilin cənazəsini doğma Muğanlı kəndi ilə bərabər qonşu kəndlərin vətənpərvər oğulları da qarşılamış, Dövlət bayrağına bükülü halda kənd qəbiristanlığında torpağa tapşırdılar. Bu ağır dərdə Qabilin atası Fazil də, anası Sevil də mərdanə dözdülər. Onlar fəxr etdilər ki, oğulları doğma torpaqlarımızın işğaldan azad olunması uğrunda canını fəda edib. Doğma bacıları Zülfiyyə və Bəsti isə bu ayrılığı acı göz yaşları ilə yola saldılar. Ancaq yada salanda ki, erməni işğalçıları üzərində ordumuzun şanlı qələbəsində onların əziz qardaşının da payı var, bundan təskinlik tapdılar...

# Vüsal atasının döyüş yolunu davam etdirdi

Vüqar Yusif oğlu Sadıqov 1975-ci ildə Saloğlu qəsəbəsində anadan olmuşdur. Birinci Qarabağ müharibəsi başlayanda onun 18 yaşı təzəcə tamam olmuşdu. Hərbi xidmətə çağırış yaşı tamam olduğuna görə o, Rayon hərbi komissarlığına müraciət etdi. Lakin müharibəyə getmək üçün oradan müsbət cavab almadığına görə Qazax rayon hərbi komissarlığına bildirdi və ona Bakı şəhərində Daxili Qoşunlarda xidmət göstərməyə razılıq verildi.



Vüqar Sadıqov üç aya yaxın xidmət göstərdikdən sonra çox çətinliklə də olsa Qarabağa döyüşə getməyə nail oldu. 1993-cü ilin iyun ayında Füzuli rayonunda döyüşlərdə iştirak edən Vüsal Sadıqov öz məharətini göstərdi. Mənfur ermənilərə qarşı gərgin döyüşlərdə iştirak edən gənc hərbçi 8 ay döyüşlərdə oldu. Füzuli rayonunun Kürdmahmudlu kəndində gedən döyüşlərdə Vüqar ağır yaralandı. Hətta bu döyüşdə o, elə bir vəziyyətə düşmüşdü ki, yaralı halda huşu özündə olmamışdı. Gənc döyüşçünü yaralı vəziyyətdə Beyləqan rayonuna, oradan isə helikopterlə Bakı şəhərinə gətirdilər. Vüqar ağır yaralı olduğuna görə onun bir daha döyüşlərdə iştirak etməsinə icazə verilmədi.

Lakin bütün bunlara baxmyaraq Vüqarın döyüş yolunu oğlu Vüsal Sadıqov İkinci Qarabağ müharibəsində davam etdirdi. V. Sadıqov 1998-ci ildə Saloğlu qəsəbəsində anadan olub. 2015-ci ildə Daxili Qoşunların ali hərbi məktəbinə qəbul olmaq üçün müvəffəqiyyətlə imtahan verən gənc hərbçi bu məktəbin müdavimi oldu. 2019-cu ilə kimi həmin akademiyada kursant kimi təhsil aldı və ona leytenant rütbəsi verildi. Gənc zabit bundan sonra “N” saylı hərbi hissədə xidmətə başladı.

Sentyabrın 27-də Qarabağda müharibə başlayanda onu Tərtər rayonuna göndərdilər və orada komendant xidməti vəzifəsini icra etdi. Həmin ərəfədə Tərtər rayonu erməni işğalçıları tərəfindən aramsız olaraq artilleriya atəşinə tutulurdu. Bir müddətdən sonra Vüsalı təcrübəli döyüşçü kimi Hadrut qəsəbəsinə göndərdilər. 22 günə yaxın həmin ərazidə öz vəzifəsini yerinə yetirməyə başladı. Bundan sonra Vüsalın üzvü olduğu dəstəni Şuşa şəhərinə göndərdilər. Oraya çatan ərəfədə Şuşanın işğaldan azad olunmasına sanılı dəqiqələr qalmışdı. Bu vaxt erməni işğalçıları tərəfindən Şuşa şəhəri aramsız olaraq güclü artilleriya atəşinə tutulurdu. Onların hərbi dəstəsinin Şuşaya daxil olduğunu görən ermənilər igid döyüşçülərimizi artilleriya atəşinə tutdular. Lakin erməni ordusuna layiqli cavab verildi və məhv edildi. Bu vaxt bəzi döyüşçülər kimi Vüsal da ağır yaralandı. Çox çətinliklə də olsa yaralıları döyüş meydanından çıxardılar. Onlar Hadrut qəsəbəsinə göndərildi və oradan da Füzuli rayonuna aparıldı. Başqalarından fərqli olaraq Vüsal bir qədər ağır yaralandığına görə onun yenidən döyüşə qayıtmasına icazə verilmədi və Qazax rayon Mərkəzi Xəstəxanasına göndərildi. Hazırda onun bədənindəki qəlpələrdən bir neçəsi qalmaqdadır.

Vətən müharibəsinin qələbə xəbərini eşidən Vüsal hələ xəstəxanada müalicə olunurdu. Bu şad xəbər onun bədənindəki bütün ağrılarını yaddan çıxardı və ürəyi dağa döndü.

İkinci Qarabağ müharibəsinin iştirakçısı Vüsal Sadığov bu gün valideynlərinin yanında ailəsi ilə birgə yaşayır. Söhbət zamanı onun atası Vüqar, anası İlhamə, həyat yoldaşı Lalə Vüsalla fəxr etdiklərini bildirdilər və Azərbaycanın şanlı ordusunun əldə etdiyi qələbəyə görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Vüsal isə vətən yolunda həmişə döyüşməyə hazır olduğunu bildirdi.

***İbrahim Əliyev***

# Elin-obanın sevinci

Son günlər Köçəsgər kəndində Rövşən Hümmətovun evinə gözaydınlığına gələnlərin ardı-arası kəsilmir. Eşidən-bilən ailənin kiçik oğlu Mərdanın hərbi qospitaldan müalicədən evlərinə qayıtmasından şad olduqlarını bildirir, atası Rövşənə, anası Füsunəyə gözaydınlığı verir. Yağı düşmənin ağır mərmisindən ciddi zərbə almış sıravi əskər Mərdan Hümmətov ikinci Qarabağ müharibəsinin əvvəllərində Füzulidə gedən döyüşlərdə başından və ayağından ağır yaralanmış, başqa yaralı əskər yoldaşları ilə Bakı şəhərindəki hərbi qospitala gətirilmişdir.

Mərdangil ailədə üç qardaş, bir bacıdırlar. Böyük qardaşları Nurlan və Nurdan milli ordu sıralarında qulluq edib qayıtmışlar. Mərdan isə Qazax şəhərində kollecdə oxuyurdu. Bu il sentyabrın 27-də ikinci Qarabağ müharibəsi başlayanda yüzlərlə vətənpərvər gənclərimiz kimi, Mərdan da kollecdə təhsilini yarımçıq qoyub cəbhəyə yollanmağa, doğma torpaqlarımızı düşmən tapdağından azad etmək uğrunda vuruşmağa qərar verdi. Qardaşları onun fikrinə etiraz edəndə ki, sən hələ cavansan, döyüşə biz getməliyik, Mərdan cavab vermişdi ki, siz ordu sıralarında olanda Qarabağı geri qaytara bilmədiniz, mən gedib xain düşməni yurdumuzdan qovacam, doğma Qarabağımızı 30 illik işğaldan azad edəcəyəm.



Doğrudan da Mərdan müharibənin ilk günlərindən cəsur əskər kimi döyüşün ön sıralarına atıldı, əskər yoldaşları ilə əl-ələ verib azğın erməni quldurlarına qan uddurmağa başladı. Onun döyüşdüyü taqım az bir zamanda düşmənin xeyli canlı qüvvəsini məhv etdi. Füzuliyə çatanda isə əskərlərimiz ermənilərin möhkəm istehkamına rast gəldilər. Mərdangilin taqımı bu istehkamı bir müddət yarıb keçə bilmədilər. Üstəlik işğalçılar burada ciddi əks-hücuma keçdilər. Namərd düşmən əskərlərimizin üzərinə saysız-hesabsız mərmilər yağdırmağa başladılar. Bu ağır mərmilərdən biri də Mərdangilin yanında partladı və dəhşətli bir gurultu qopardı. Mərdan özünə gələndə başa düşdü ki, hərbi qospitaldadır.

O, ağır vəziyyətdə bir müddət qospitalda müalicə olundu. Bədənindəki qəlpə tez sağaldı, başındakı ağrılar isə azalmaq bilmirdi. O çalışırdı ki, tez sağalıb əskər yoldaşlarının yanına qayıtsın, qələbə sevincini onlarla birlikdə səngərlərdə qarşılasın. Təəssüf ki, bu mümkün olmadı, həkimlər bildirdilər ki, dəhşətli partlayışdan beynin bərk silkələnib, hələlik çox ehtiyatlı davranmalı, riskli hərəkətlər etməməlisən.

Bu tövsiyələri qəbul etdikdən sonra Mərdanı bu günlərdə qospitaldan doğma evlərinə göndərdilər. Bu qayıdış onun valideynləri ilə yanaşı qohum-əqrəbanı da, dost-tanışı da ürəkdən sevindirdi. Onun gəlişi onsuz da qələbə müjdəsindən ürəkləri dağa dönən Köçəsgər camaatının sevincini ikiqat artırdı...

*Vida sözü*

# Mənim sevimli müəllimim



Həyatda elə şəxsiyyətlər var ki, onlar uzun illər unudulmur, yaddan çıxmır, dünyadan köçəndə belə həmişə xatırlanırlar. Ömürlərini gənc nəslin təlim-tərbiyəsinə, biliklərə dərindən yiyələnməsinə həsr edən müəllimlər də belə insanlardandır.

Mənim də həyatımda belə müəllimlər olub. Orta məktəb illərində neçə il mənə dərs demiş, bilik və bacarıqlarını bizlərə sərf etmiş belə adamları həmişə ehtiramla yad edirəm. Sevimli müəllimlərim Sona Yaqubəliyevanı, Tahirə Xəlilovanı xatırlayanda bu gün də özümü onların şadirdi hiss edir, ruhlarına rəhmət oxuyuram.

Bir sevimli müəllimim də var idi-Balgül Qurbanova. 1948-56-cı illərdə bizə coğrafiyadan dərs deyirdi. O, sinfə daxil olanda hamının üzü gülürdü, sevinirdi. Balgül müəllimin mehriban çöhrəsi, gülər sifəti, doğmalıq rəftarı, şirin danışığı hamını heyran edirdi. Onun hamıya göstərdiyi qayğı, mehribanlıq, ünsiyyət o qədər səmimi idi ki, hamımız Balgül müəllimi özümüzə ən doğma bir adam hiss edirdik.

Orta məktəbi bitirdikdən sonra hərə bir yana getdi. Mən də taleyimin dalınca yollandım. Ancaq sevimli müəllimimdən həmişəlik ayrılmadım. Ali məktəbdə oxuyanda da, sonralar rayonumuza qayıdıb redaksiyada işləyəndə də hər dəfə kəndimizə gələndə onunla görüşürdüm. O, köhnə müəllimim kimi halımı soruşur, işlərimlə maraqlanır, uğurlarıma ürəkdən sevinirdi.

İllər ötdü, sevimli müəllimim yaşlandı, şübhəsiz mən də qocaldım. Xeyirdə-şərdə hərdən yenə görüşürdük Balgül müəllimlə. Yenə də o, əvvəlki şuxluqda, səliqədə, mədəniyyətdə. Yaşlansa da səliqə-səhmanı, təravəti, ziyalılığı itirməmişdi. Bu günlərdə avtomaşın qəzasından həlak olan gənc nəvəsi Qurbanın faciəli ölümü onun bütün sığalını pozdu, sevincini, fərəhini əlindən aldı. Əziz nəvəsinin vəfatından on-on beş gün keçməmiş Balgül müəllimin övlad, nəvə məhəbbəti ilə dolu ürəyi döyünməkdən dayandı. Həmişə sinəsində fərəhlə döyünən coşğun ürəyi bu faciəyə, bu dəhşətə tab gətirmədi.

Mənim sevimli müəllimim Balgül Qurbanova 1929-cu ildə Ağstafanın Qıraq Kəsəmən kəndində anadan olmuşdu. Ali təhsil aldıqdan sonra doğma kənddəki orta məktəbdə müəllimliyə başlamış, əlli ildən artıq pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Bir ziyalı kimi kəndimizdə böyük hörmət və nüfuz qazanmış, bu yüksək adı şərəflə doğrultmuşdur. Mən əminəm ki, onun dərs dediyi şadirdlərin hamısı Balgül müəllimi həmişə hörmətlə yad edəcək, xatirəsini əziz tutacaqlar.

Allah rəhmət eləsin, əziz müəllimim, yerin behişt olsun, qəbrin nurla dolsun!

***Firdovsi Heydərli,***
***Rayon Ağsaqqallar Şurasının sədri***

# Elvin Elsevər oğlu İmaməliyev



30 ilə yaxın həsrətlə gözlədiyimiz gün Vətənimizə qədəm qoydu, torpaqlarımız işğaldan azad olundu. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan ordusu möhtərəm prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında əsil qəhrəmanlıq göstərdi, qarabağlıları öz doğma yurdlarına qovuşdurdu. Bu döyüşlərdə iştirak edən, əsgərlərimizdən biri də həmyerlimiz, Ağstafa şəhər 1 saylı tam orta məktəbin direktoru Elvin Elsevər oğlu İmaməliyev idi.

Elvin İmaməliyev 1989-cu idə Qırlı kəndində anadan olmuş, həmin kəndin Sirac Əliyev adına orta məktəbində təhsil almışdır. O, orta məktəbi bitirdikdən sonra 2006-cı ildə Azərbaycan Dillər Universitetinin fransız dili fakültəsinə daxil olmuş, 2010-cu ildə həmin institutu bitirdikdən sonra hərbi xidmətə getmiş və Vətən qarşısında borcunu başa vurduqdan sonra Qırlı kənd orta məktəbində ixtisası üzrə müəllim işləmişdir. Elvin İmaməliyev Yeni Azərbaycan Partiyasına qəbul olunduqdan bir müddət sonra onun təşkilatçılığı, bacarığı nəzərə alınaraq 2017-ci ildə YAP Ağstafa rayon təşkilatının Gənclər birliyinin sədri seçilmişdir.

E.İmaməliyev işlədiyi dövrdə öz biliyini bir daha sınaqdan keçirmiş və direktorların işə qəbul komissiyası tərəfindən keçirilən imtahanda yüksək bal topladığına görə 2019-cu ildə şəhərimizdəki 1 saylı tam orta məktəbə direktor təyin olunmuşdur.

Vətən müharibəsi başlayanda bir çox igid oğullarımız kimi E.İmaməliyev də sanki daxili narahatlıq keçirmiş, yarı canı işğalçı erməni əsgərlərinə qan udduran döyüşçülərimizin yanında olmuşdu. Bu narahatlıq uzun çəkmədi və o, qələmini rəhbərlik etdiyi məktəbdə əyləşdiyi stolun üzərinə qoyaraq hərbi paltar geyindi, könüllü olaraq cəbhəyə yola düşdü. Bir neçə gün Cəbrayılda, Füzulidə, Qubadlıda gedən döyüşlərdə qəhrəmancasına döyüşdü, torpaqlarımızın işğaldan azad olunmasında öz gücünü əsirgəmədi. Lakin amansız ölüm bəzi igidlərimiz kimi Elvindən də yan keçmədi. O, Şuşada döyüş meydanında dünyasını dəyişdi və şəhidlik zirvəsinə yüksəldi. Rayonun bütün təhsil işçiləri Elvinin vəfatından kədərləndi və ona Allahdan rəhmət dilədilər.

Elvin İmaməliyev bir çox şəhidlərimiz kimi Vətənin üçrəngli bayrağı altında doğulduğu Qırlı kəndində son mənzilə yola salındı.

Allah rəhmət eləsin.

***Ağstafa Rayon Təhsil Şöbəsi***

# Rayonda ağacəkmə aksiyası keçirildi

Son illər Ağstafada baramaçılığın inkişaf etdirilməsinə diqqət xeyli artırılmışdır. Uzun illər bundan əvvəl baramaçılıq rayonun iqtisadiyyatında mühüm yerlərdən birini tuturdu. Lakin son 20 ildə bu sahə bir qədər diqqətdən kənarda qalmış, tut ağacları kəsilmiş və bir çox kəndlərdə tut bağları məhv edilmişdi. Bu gün rayonda kənd təsərrüfatının digər sahələri ilə yanaşı baramaçılığın da inkişafı ön plana çəkilmiş və demək olar ki, bu sahədə uğurlu nəticələr əldə olunmuşdur.



Dekabr ayının əvvəlində rayonda keçirilən ağacəkmə aksiyası məhz baramaçılığın inkişafına yönəldilən ən mühüm tədbirlərdən biri olmuşdu.

Rayon icra hakimiyyətinin müvafiq şöbəsindən əməkdaşımıza bildirdilər ki, qısa müddətdə rayonun əksər kəndlərində 3710 ədəd tut tingi əkilmiş və suvarılmışdır. Hətta elə kəndlər olmuşdur ki, bu məqsədlə ayrılmış əkin sahələrində 200-ə yaxın tut tingi basdırılmışdır. Ümumiyyətlə gələcəkdə bu sahənin daha da inkişaf etdirilməsi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

# Koronavirus "Covid-19" infeksiyasından hamı özünü necə qorumalıdır



Öz aktuallığı ilə dünyanın diqqət mərkəzində olan "Covid-19" ölkəmizdə də təsirsiz ötüşmür. Koronavirus xəstəliyi 2019-cu ilin dekabr ayında Çinin Uhan şəhərində sətəlcəm xəstəliyi kimi qeydə alınmışdır. 31 dekabr 2019-cu il tarixindən başlayaraq virusa ÜST-ı tərəfindən "Covid-19" adı verilmişdir. Xəstəlik-əsas əlaməti virusun burun kanalının yuxarı hissəsinə düşür və infeksiya burundan yayılmağa başlayır. Bu zaman xəstə virusa yoluxmuş sayılır, lakin onda xəstəliyin əlamətləri müşahidə olunmur. Bu virusun ən pis tərəflərindən biri də odur ki, daşıyıcı infeksiyanı yayır, amma özünün xəstə olduğunu bilmir. Əgər orqanizmin immun sistemi virusu erkən mərhələdə öldürməzsə virus tənəffüs yollarında aşağı hərəkət edərək ağciyərə keçir və iltihablaşır. Bu da ağciyər toxumasının iltihabı olan "sətəlcəmdir". Bu zaman xəstələrdə oksigen çatışmazlığı əmələ gəlir və boğulma, tənginəfəslik baş verir. Bu cür hallar baş verən xəstələrdə böyrək çatışmazlığı, ürək və qan damarları, şəkərli diabet xəstələrində ölüm sayı çoxalır. Bu xəstələrin bədəninin hər yerində, o cümlədən ayaqlarında və ağ ciyərlərində tromblar meydana gəlir. Xəstələrin ağırlaşmaları daha çox 60 yaşdan yuxarı insanlar, immun sistemi zəif olanlar, yanaşı gedən ağır xəstəlikləri olan (tənəffüs sistemi, ürək-damar xəstəlikləri, şəkərli diabet, onkoloji və s) insanlar arasında müşahidə olunur. Bu səbəbdən qeyd edilmiş insanlar səhhətlərinə xüsusi diqqətli etməli və daha ciddi profilaktik tədbirlər görməlidir. Bu kimi profilaktiki tədbirlərə aşağıdakılar aiddir.

Virusun hava damcı yolu ilə yayılmasının, həmçinin özləri və kənar şəxslərin yoluxma hallarının qarşısının alınması üçün insanlar evdə qalmalı, bacardıqca ictimai yerlərdən uzaq durmalı, ictimai nəqliyyatdan istifadə etməməli, kütləvi ictimai tədbirlərdən və xəstə adamlarla kontaktdan uzaq durmalıdır. Bir metr məsafə intervalı gözlənilməlidir. Evdən kənara yalnız zəruri vaxtlarda (ərzaq, aptek, həkimə getmə və s.) çıxarkən mütləq maskadan istiadə etmək lazımdır.



Onu da qeyd etmək lazımdır ki, maska virusdan hava damcı yolu ilə qorunmaqdan çox əllərinizin ağız-burun boşluğuna toxunmasının qarşısını alır. Əllər tez-tez sabunla yuyulmalı, sonra 60-70 % spirtlə dezinfeksiya edilməlidir. Spirt məhlulu virusu məhv edir. Evdə otağın havasını tez-tez dəyişin, otağı yaş əski ilə silin. Əgər boğazınızda qıcıqlanma, quru öskürək, ağrı və s. kimi əlamətlər varsa tez-tez isti su içmək, dərmanları bol maye ilə içmək lazımdır.

Su boğazda virusları mədəyə yuyub aparır və tənəffüs yollarına düşmədən qoruyur. Mədə turşusunda virus məhv olur. Hərarət qalxdıqda, qripəbənzər əlamətlər, quru öskürək və s. kimi əlamətlər hiss edildikdə təcili 103 xidmətinə müraciət etmək lazımdır. Heç bir əlamət olmadan xəstə insan yoluxucu ola bilər. Bu səbəbdən virusa yoluxmadan şübhəli bilinən şəxslər ən azı 14 gün müddətinə karantində qalması mütləqqdir.

Məlumat üçün bildirirəm ki, Ağstafa rayon İcra Hakimiyyəti başçısının 19 oktyabr 2020-ci il tarixli 78 saylı sərəncamına əsasən Ağstafa rayonunda Koronavirus "Covid-19" infeksiyasının yayılmasının qarşısını almaq məqsədi ilə sanitar-gigiyenik və profilaktik qaydaların ciddi tətbiqinə dair Tədbirlər Planının təsdiq edilməsi barədə sərəncam verilmiş və məsul şəxslər təyin edilmişdir. Hər gün aktiv Covid xəstələrinin evində monitorinq keçirilir. Monitorinqdə icra hakimiyyətinin təyin edilmiş nümayəndələri, MRX-nın həkimi, GEM-nin direktoru, Rayon polis şöbəsinin müavini Milli Covid Məlumat Bazasında qeydiyyata götürülmüş xəstələrin evlərində maarifləndirici söhbətlər aparılır, 14 gün karantin rejimində qalmaları tapşırılır. Xəstələrin ailə üzvlərindən yaxma götürülür və evləri dezinfeksiya edilir.

Rayonda fəaliyyət göstərən çayxana və kafelərdə, idarə, müəssisə və təşkilatlarda da mütəmadi olaraq dezinfeksiya tədbirləri həyata keçirilir.

***Zoya Nəbiyeva,***
***Ağstafa rayon GEM-nin direktoru***

# Bakiyə Həsən qızı Yusifova



Rayonun tanınmış həkimi Yusifova Bakiyə Həsən qızı 77 yaşında vəfat etmişdi.

B. Yusifova 1943-cü ildə Xılxına kəndində anadan olmuşdur. O, doğulub boya-başa çatdığı Xılxına kəndində orta təhsilini başa vurduqdan sonra Bakı şəhərinə yollanmış və 1960-cı ildə müvəffəqiyyətlə imtahan verərək Azərbaycan Tubb İnstitutunun pediatriya fakültəsinə qəbul olmuşdur. O, 1967-ci ildə institutu fərqlənmə diplomu ilə bitirdikdən sonra təyinatla Ağstafa rayonuna gəlmiş və dəmiryolu xətt xəstəxanasında əmək fəaliyyətinə başlamışdır.

Öz peşəsini ürəkdən sevən, yüksək bilik və bacarığı ilə şöhrət qazanan nurlu uşaq həkimi çox keçmir ki, rayonun səhiyyə rəhbərliyinin də diqqətini cəlb edir və o, uşaq xəstəxanasına işə dəvət olunur. O vaxtdan bacarıqlı uşaq həkimi öz sənətinə daha möhkəm bağlanmış, el-oba arasında dərin hörmət qazanmışdır. Onun zəhməti heç vaxt unudulmamış, rayon rəhbərliyi tərəfindən həmişə yüksək qiymətləndirilmişdir.

Bakiyə Yusifova ömrünün sonuna kimi peşəsinə sadiq qalmış, uşaqların sağlam böyüməsi üçün əlindən gələni etmişdir. Rayonun tibb işçiləri, eləcə də bütün ictimaiyyət Bakiyə xanımı heç vaxt unutmayacaq, onu həmişə yad edəcəklər.

Allah rəhmət eləsin!

***Ağstafa rayon Mərkəzi Xəstəxanasının kollektivi***

# Elan

"N" saylı hərbi hissənin müddətdən artıq hərbi qulluqçusu Babazadə Araz Haqverdi oğluna məxsus hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Allah rəhmət eləsin!

Əlәddin Kəsəmənli əziz və sevimli müəllimi

**Balgül Qurbanovanın**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxın qohumlarına dərin hüznlə başsağlığı verir.

---

"Ağstafa" qəzetinin redaktoru Hacı İbrahim Əliyev iş yoldaşı Firdovsi Heydərliyə, xalası

**Nənəxanım xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rayon Ağsaqqallar Şurasının sədri F. Heydərli yaxın qohumu Eldar Abdullayevə, anası

**Nənəxanımın**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağstafa şəhər 2 saylı orta məktəbin pedaqoji kollektivi məktəbin müəllimi Elmira Mansırovaya, oğlu

**Sənanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağstafa şəhər 2 saylı orta məktəbin kollektivi ibtidai sinif müəllimi Sahibə Abdullayevaya, anası

**Gülsüm xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağstafa şəhər 2 saylı orta məktəbin pedaqoji kollektivi məktəbin ibtidai sinif müəllimi

**Nanuli Nuriyevanın**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxın qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

Qaçaq Kərəm kənd tam orta məktəbin direktoru Nailə Əhmədova və müəllim kollektivi məktəbin riyaziyyat müəllimi

**Nazilə Alcanovanın**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxın qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Tağızadə, Vaqif Bayramov, Qəhrəman Qurbanov, İbrahim Əliyev, Vidadi Həsənov, Nizami Əfəndiyev, Vaqif Qasımov, Vidadi Bağırov, Oqtay Nəsibov, Nakir Quliyev, Qılman Qəhrəmanlı yaxın dostları Cəmaləddin Rzayevə, qardaşı

**Fəxrəddin Rzayevin**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rayon Təhsil Şöbəsinin kollektivi iş yoldaşları Əli Əliyevə, anası

**Bakiyə xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

## Ədalət bu qələbədir

Gözün aydın, Azərbaycan,
Şan-şöhrətdir bu qələbə,
Halal olsun, Baş Komandan,
Şücaətdir bu qələbə-
Ədalətdir bu qələbə!

İşğalçı yurddan qovulur,
Torpaqlar geri alınır,
Kənd-şəhər azad olunur
Bir qüdrətdir bu qələbə-
Ədalətdir bu qələbə!

Ürək coşur hünərindən,
Yer titrəyir məhvərindən,
Milli ordu əskərindən
Rəşadətdir bu qələbə-
Ədalətdir bu qələbə!

Ordumuz girdi döyüşə,
Düşməni saldı təşvişə,
Qəhrəman ulu keçmişə
Sədaqətdir bu qələbə-
Ədalətdir bu qələbə!

Qoy şad olsun şəhid ruhu,
Qovladıq qaraguruhu,
Başda durur məğrur dahi,
Bir ibrətdir bu qələbə-
Ədalətdir bu qələbə!

Döyüş getdi qırx dörd gündə,
Düşmən salındı kəməndə,
Dünyanın hərb tarixində
Məharətdir bu qələbə-
Ədalətdir bu qələbə!

Eşq olsun Azərbaycana,
Yağı qalıb yana-yana,
Türkiyəyə, Pakistana
Məhəbbətdir bu qələbə-
Ədalətdir bu qələbə!

Əziz Vətən, doğma Ana,
Bayraq sancıldı hər yana,
Türkün böyük dünyasına
Fəxarətdir bu qələbə-
Ədalətdir bu qələbə!..

***Cəfər Şimşək***

# Hörmətli oxucular!

*Rayonumuzun yeganə mətbu orqanı olan*

# "Ağstafa"

*qəzetinə 2021-ci ilin birinci yarım ili üçün abunə yazılışına başlanıldı. Qəzetə rayon mətbuat yayımında və redaksiyanın özündə abunə yazıla bilərsiniz. Qəzetin yarım illik abunə qiyməti 10 manatdır.*

*Redaksiyanın "Kapitalbank"ın Ağstafa filialındakı hesab nömrəsi AZ04AİİB33080019445200229152, VÖEN nömrəsi isə 3600081691-dir.*

*Qəzetimizə abunə yazılanlara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.*

**BAŞ REDAKTOR:**
**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*
*Şəadətnamə № 308*

*Redaksiya heyəti*
*L.Eyyubova, L.İsayeva, K.Abbasov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli, Q.Qurbanov*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan:*
*Ağstafa şəhəri,*
*Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*